*Fərhad Əli oğlu ƏLİYEV - 70*

# NƏZƏRİ, TƏCRÜBƏVİ VƏ ELMİ YOLLARIN YOLÇUSU



Fərhad müəllimlə mənim tanışlığım 2018-ci ildə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində olmuşdur. O vaxtı mən həmin universitetdə “fond nəzarətçisi” vəzifəsində çalışırdım.

Fond Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əsas binasında yox, Yasamal Rayon İcra Aparatına yaxın beşmərtəbəli binanın 2-ci mərtəbəsində yerləşirdi (Fonda universitetin bütün qiymətli sənət əsərləri toplanmışdı).

Universitetin rektoru Fərəh xanım, mənim haqqımda müsbət fikirdə olduğuna görə, fondu təhvil götürməyi mənə məsləhət gördü. Mən fondu təhvil götürdüm. Bir-iki gündən sonra Fərəh xanım fonda gəldi və fondda səliqə-səhman gərəndə mənə öz razılığını bildirdi. Beləliklə, mən işimi davam etdirməyə başladım.

Bir gün mənə xəbər çatdı ki, Fərhad müəllim səni çağırır. Fərhad müəllim artıq universitetdə təsərrüfat işləri üzrə prorektor vəzifəsində çalışırdı.

Fond yuxarı binada olduğuna görə, tez aşağı binaya piyada gələrək onun kabinetinə daxil olmaq üçün qapısını tıqqıldatdım. - “Gəl” sözündən sonra, qapını açıb içəri girdim. Gördüm kabinetdə kresloda ortaboylu, nurani sifətli bir adam oturub.

O, ayağa qalxıb mənimlə görüşdü və mənə oturmağa yer göstərdi. Onun mənə qarşı belə yaxşı münasibət göstərməsi, məndə ona qarşı müsbət hisslər yaratdı. O, məni çağırmağının səbəbini bildirdi. Və fonda yerləşən əşya və eksponatların saxlama qaydalarını, onların ayrı-ayrılıqda yerləşdirmələrini və ümumiyyətlə cavabdeh bir şəxs kimi məsuliyyət daşıdığını mənə izah etdi. Mən bundan çox məmnun olub, ona öz təşəkkürümü bildirdim.

Belə sadə, təcrübəli insanla ünsiyyətdə olmağın onun həyat və yaradıcılıq yolu məni maraqlandırdı. Və onun həyat yoluna nəzər salmaq marağı məndə yarandı. Mən onun haqqında məlumatlar toplamağa başladım. Bunun gənc nəslə, o cümlədən tələbələrimizə bir örnək ola biləcəyinə əmin oldum.

Əliyev Fərhad Əli oğlu 1951-ci il dekabr ayının 3-də Azərbaycan Respublikası Bərdə rayonunun Alpoud kəndində anadan olmuşdur. 1967-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitunun “Uçot-iqtisad” ixtisası üzrə tam kursunu bitirmişdir. İlk əmək fəaliyyətinə 1972-ci ilin avqust ayının 1-dən Respublika Toxuculuq Birliyində iqtisadçı kimi başlamışdır. 1972-1973-cü illərdə Moskva şəhərində ordu saralarında hərbi xidmətdə olmuşdur.

O, 1974-cü ildən 1982-ci ilin iyul ayına kimi Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyinin mərkəzi aparatının plan-maliyyə şöbəsində “Böyük aparıcı və baş iqtisadçı” vəzifəsində çalışmışdır.

1982-ci ilin iyul ayında Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyinin kollegiyasının qərarı ilə həmin nazirliyin Tədris və Nəzarət şöbəsinin rəisi vəzifəsinə təyin olunmuş və bu vəzifədə 1988-ci ilin oktyabr ayına kimi çalışmışdır.

1988-ci ilin oktyabr ayından etibarən hökumətin qərarı ilə Ali və Orta ixtisas Təhsili, Maarif Nazirlikləri və respublika Texniki Peşə Təhsili komitəsinin bazası əsasında Yeni yaradılmış Xalq Təhsili Nazirliyinin Mühasibat uçotu, Hesabat və Nəzarət idarəcində aparıcı iqtisadçı, idarə rəisinin müavini və 1993-cü ildən 2015-ci ilin dekabr ayına kimi Azərbaycan Respublikası Təhsil Nazirliyinin İqtisadiyyat şöbəsinin mühasibat uçotu və hesabat sektorunun müdiri vəzifəsində dövlət qulluğunda çalışmışdır.

Əliyev Fərhad Əli oğlunun Təhsil Nazirliyində əmək fəaliyyəti dövründə, tədris-pedaqoji, elmi, praktik-professional keyfiyyət göstəriciləri aşağıdakı kimi xarakterizə edilir: - Onun həyatında əmək fəaliyyətinə başladığı dövründə, keyfiyyət göstəricilərinin sayı-hesabı yoxdur. Və bu keyfiyyətlərin bəzilərini aşağıdakı kimi xarakterizə etmək olar.

1978-1980-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Komitəsinin Marksizm-Leninizm Universitetinin ideoloji kadrlar fakültəsinin iqtisadiyyat şöbəsində təhsil almış və oranı “Fərqlənmə” diplomu ilə bitirmişdir.

1998-ci və 1999-cu illərin may aylarında Kremlin qrultaylar sarayında keçirilən Mühasiblərin və Auditorların I və II Qrultayında və 2000-ci ildə yenə də Moskva şəhərində keçirilən mühasiblərin beynəlxalq toplantısında Azərbaycan Respublikasından nümayəndə kimi iştirak etmişdir.

2000-ci ilin avqust ayının 31-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində yerləşən Beynəlxalq Daxili Auditorlar İnstitutuna üzv seçilmişdir və həmin İnstitutun 1048035 saylı Beynəlxalq sertifikatını almışdır.

2005-ci ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyində “Azərbaycan Respublikasında “mühasibat uçotunun təşkili” tədris proqramı üzrə kurs keçmiş və Maliyyə Nazirliyinin müvafiq sertifikatını almışdır.

2006-cı ilin noyabr ayının 12-dən 17-nə kimi Türkiyənin İstanbul şəhərində keçirilən Dünya Mühasiblərinin 17-ci Beynəlxalq Konqresində Azərbaycan nümayəndə heyyətinin tərkibində iştirak etmişdir.

Bundan başqa Fərhad müəllim respublikamızda uçotun Beynəlxalq standartlarına keçidi ilə əlaqədar keçirilən beynəlxalq səviyyəli seminarların iştirakçısı olmuşdur. 1984-cü ildə “Maarif” nəşriyyatı tərəfindən 20 çap vərəqində buraxılan - “Hansı peşəni seçməli?”, “Oxumağa hara getməli?” məlumat kitabının 1984-2015-ci illər ərzində respublikanın müxtəlif nəşriyyatlarında və eləcə də Maliyyə nazirliyinin elmi-praktik jurnalı olan “Maliyyə və uçot” jurnalında çap edilmiş 40-dan çox elmi-praktik məqalə və tezislərin müəllifidir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 oktyabr tarixli, 1754№-li cərancamı ilə Azərbaycan Təhsilinin inkişafında xidmətə görə “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

2016-cı ilin yanvar ayından isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin göndərişi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rektorun Maliyyə və İqtisadi məsələlər üzrə müşavir vəzifəsinə təyin edilmişdir.

2018-ci ilin oktyabr ayının 1-dən isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudovanın təqdimatı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitunda “Təsərrüfat işləri üzrə prorektor” vəzifəsinə təsdiq edilmiş və hal-hazırda bu vəzifədə çalışır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 2016-cı ilin yanvar ayından işlədiyi dövrdə universitetdə maliyyə-təsərrüfat fəaliyyətinin, mühasibat uçotu və hesabat işlərinin mövcud təlimatların tələbləri səviyyəsində qurulması və aparılması, universitetin maddi-texniki bazasının gücləndirilməsi, qorunub saxlanılması, tədris prosesinin müasir kompyuter texnikası və digər avadanlıqlarla təchizatı istiqamətində cəmərəli fəaliyyət göstərir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru professor Ceyran Mahmudova tərəfindən universitetin inzibati-təsərrüfat işləri üzrə prorektoru Fərhad Əli oğlu Əliyev təhsil sahəsindəki uzunmüddətli cəmərəli fəaliyyətinə, xidmətlərinə görə 2021-ci ilin sonunda “Fəxri fərmanla” təltif edilmişdir.

Biz, Fərhad müəllimə bu uğurlu, məsuliyyətli işində ona Allahdan cansağlığı və bundan sonra da əmək fəaliyyətində keyfiyyət göstəricilərinin sayının artmasını arzulayırıq.

***27.IX.2022.***



***Şahvələd ƏLİYEV,***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi.***